Azərbaycan müəllimi.- 2025.- 8 fevral, №5.- S.6.

## Çağdaş təhsildə təşkilatlanma: yeni nəsil tərbiyəsi

# Təhsil sistemində bilik, bacarıq və səriştə ilə yanaşı, xarakter tərbiyəsi üçün daha sistemli addımlar atmalıyıq



"Azərbaycan müəllimi" qəzeti "Çağdaş təhsildə təşkilatlanma" adlı yeni rubrikaya start verir. Rubrika çərçivəsində milli təhsilimizin inkişafı, gənc nəslin təlim-tərbiyəsi və digər aktual məsələlərlə bağlı tanınmış müəllimlərin, ziyalıların, ictimai xadimlərin məqalələri təqdim ediləcək. Rubrikada həmçinin müasir təhsil metodları, müəllimlərin rolu və valideynlərin öhdəlikləri müzakirə olunacaq, gənclərin qarşılaşdığı problemlər və onların həlli yolları barədə ekspertlərin rəyləri paylaşılacaq. İlk olaraq millət vəkili, Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Mehriban Vəliyevanın məqaləsini təqdim edirik:

Ulu Öndər Heydər Əliyevin "Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır", - kəlamı heç zaman öz əhəmiyyətini itirməyəcək. Söhbət gələcəkdən gedirsə, gənclikdən danışmaq, ona hədəflənmək ən doğru yoldur. Dövlət başçımız cənab İlham Əliyev də hər çıxışında məhz gəncliyin tərbiyəsindən, onların milli dəyərlərə sadiq, vətənpərvər ruhda yetişməsindən xüsusi olaraq danışır. Gənc nəslin tərbiyəsi isə əsasən erkən uşaqlıq dövründən başlayır və məktəbdə davam edir.

Dövlətin bu istiqamətdə müstəqillik dövründə formalaşdırdığı və həyata keçirdiyi gənclər siyasəti 44 günlük Vətən müharibəsində öz nəticəsini verdi. Gənclərimiz əsl vətənpərvərlik nümunəsi göstərərək yeni qəhrəmanlıq salnaməsini yazdılar. Lakin unutmayaq ki, Zəfərdən sonra Yeni dövr, yeni çağırışlar gənclərin tərbiyəsində daimi inkişaf və yeni yanaşmalar tələb edir. Tez-tez eşitdiyimiz tənqidi və yaradıcı düşüncə, kommunikativ və rəqəmsal bacarıqlarla yanaşı, güclü xarakterin formalaşması, dözümlü, məsuliyyətli, milli dəyərlərə sadiq, vətənpərvər, dürüst və vicdanlı gəncliyin formalaşması məsələsi hər zaman bizi düşündürməlidir. Ölkəmizin coğrafi və geosiyasi mövqeyi güclü, savadlı, məqsədyönlü gəncliyin tərbiyəsi məsələsini diktə edir. Bu mənada xarakterin formalaşması anlayışı bütün deyilənləri ümumiləşdirir. Bu, həm də gəncləri yad təsirlərdən qoruyan vasitədir.

Bir çox ölkələrdə xarakterin formalaşması təhsil sisteminin ayrılmaz komponenti kimi verilir. Azərbaycanda "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları" sənədi 2020-ci ildə qəbul edilmişdir. Sənədin "Ümumi təhsil pilləsində təhsilalanlarda formalaşdırılan səriştələr" adlı səkkizinci bölməsində səriştə anlayışı aşağıdakı kimi təqdim olunur: "Səriştə təhsil prosesində və həyatda mənimsənilmiş hər hansı bir fəaliyyət sahəsi, eləcə də şəxsi inkişaf, sosiallaşma və cəmiyyətə inteqrasiya, məşğulluq, ömürboyu təhsil üçün zəruri olan bilik, bacarıq, yanaşma və dəyərlər məcmusudur. Səriştələr ümumi təhsil səviyyəsində tədris olunan fənlər və dərsdənkənar məşğələlər vasitəsilə formalaşdırılır". Onu da qeyd edim ki, ona qədərki kurikulum sənədində dəyər anlayışı xüsusi olaraq səriştələr təsnifatında öz əksini tapmamışdı.

Ümumi təhsil pilləsində formalaşdırılan səriştələr təsnifatına dəyərlər anlayışının da artırılması və "dəyərlər - milli kimliyin dərki və milli iftixar hissi, fəal vətəndaş mövqeyi, şəxsi və sosial məsuliyyət, demokratiya və insan hüquqlarına hörmət, mədəni müxtəlifliyə hörmət", - kimi açıqlamanın verilməsi yeni perspektivlər açır, daha məqsədyönlü vətəndaş tərbiyəsi üçün geniş imkanlar yaradır. Bütün bunlara istinadən xarakterin formalaşması məsələsi istiqamətində qaydalar toplusu hazırlamaq və illik planlaşdırmada ardıcıl və sistemli yanaşmalar qoymaq olar. Düşünürəm ki, tez-tez işlənən bilik, bacarıq, səriştə anlayışının yanında xarakter anlayışı da diqqət mərkəzinə çəkilməlidir. Xarakterin formalaşmasında müxtəlif aspektlər vacib amildir, onun formalaşmasında dəyərlər, məqsədlər, standartlar meyar amili kimi işlənə bilir. Özünənəzarət, özünütərbiyə, özünüqiymətləndirmə də bu aspektlər kontekstində üzərində düşünülməli məsələlərdir. Onların xarakterin formalaşmasında rolu araşdırılmalıdır. Tez-tez cəmiyyətdə eşitdiyimiz fikirlər: gənclərin məqsədsiz addımlaması, məsuliyyətsizlik, etinadsızlıq kimi amillərin köklü səbəbləri ilə yanaşı, ondan xilas olmanın yolları da sistemli tətbiq olunmalıdır. Bu baxımdan özünənəzarət, özünüidarə, özünüqiymətləndirmə keyfiyyətlərinin aşılanması çox mühüm tərbiyə vasitələri kimi tədqiqat obyekti ola bilər. Son dövrlər yeni çağırışlar olan "müstəqil öyrənmə", "ömürboyu təhsil" anlayışları da bu vasitələrin vacibliyini diktə edir. Yeni təhsil sənədində dəyərlərin çox açıq bir formada qeyd olunması təlim və tərbiyə prosesində yeni perspektivlər yaradır. Milli kimliyin dərki və milli iftixar hissinin aşılanması üzrə yeni proqramların hazırlanması, habelə sosial məsuliyyət və insan haqlarını qoruma prinsipləri istiqamətində şagirdlər və tələbələr arasında şüur formalaşdırmaq bu ilin "Konstitusiya və Suverenlik İli" çərçivəsində də vacib amildir. Bu, vətəndaşlıq məsuliyyətini dərindən hiss edən bir nəsil yetişdirməyə kömək edəcək.

## Bəs özünənəzarət nədir?

Özünə hakim olmaq - insanın öz düşüncələrini, duyğularını- sosial-emosional durumunu, davranışlarını və fiziki sağlamlığını idarə etmək və tənzimləmək qabiliyyətidir.

Bu, müəyyən standartlara, dəyərlərə və ya məqsədlərə uyğun olaraq insanın özünü şüurlu şəkildə izləmək və tənzimləmək prosesidir.

Bunu "özünüidarəetmə" adlandırmaq da olar. Özünüidarəetmə bacarıqları özünənəzarətdən başlayır və xarakterin formalaşmasında mühüm rol oynayır.

Özünənəzarət bacarıqlarını necə inkişaf etdirmək olar?

Xarakterin formalaşması bir təhsil siyasəti kimi şəxsə özünənəzarət və özünüqiymətləndirmə vərdişlərinin aşılanmasını önə çəkir. Özünənəzarət bacarıqlarını konkret məqsədlər qoymaqla, planlaşdırma, zamanın idarə olunması, emosional intellektin inkişafı və müsbət vərdişlərin formalaşması ilə inkişaf etdirmək olar.

Beləliklə, təhsil sistemində bilik, bacarıq və səriştə ilə yanaşı, xarakter tərbiyəsi üçün daha sistemli addımlar atmalıyıq. Xüsusi olaraq:

1. *Xarakterin formalaşması üçün yeni metodik sistem;*
2. *Tədris proqramında dəyərlərə dair materiallar sisteminin formalaşdırılması;*
3. *Özünənəzarət, özünüidarə və özünüqiymətləndirmə vərdişlərinin aşılanması ətrafında metodik üsullar.*

Azərbaycanın parlaq gələcəyi gəncliyin düzgün istiqamətləndirilməsi və xarakter tərbiyəsindən asılı olacaq. Bunu hər hansı bir məktəbdə təcrübədən keçirməklə nəticələrə əsasən qərarlar vermək olar. Bu yolda atılacaq hər addım yeni nəslin daha bilikli, məsuliyyətli və şüurlu bir cəmiyyət yaratmasına təkan verəcək. Bu istiqamətdə polemika açmaq da faydalı olar...